Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Hüquq və azadlıqlardan istifadə və siyasi mədəniyyətin vəhdəti...

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüququ, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

**Vətəndaşların hüquq və azadlıqlarının qorunması Azərbaycan dövləti üçün əsasdır və bu istiqamətdə qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görülüb. Burada söhbət təkcə vətəndaşın hüquq və azadlıqlarının qorunmasından, müdafiə edilməsindən getmir, eyni zamanda da vətəndaşın siyasi mədəniyyətinin formalaşdırılmasından, yüksək səviyyəyə qaldırlmasından gedir.**



30 ildən artıqdır ki, Azərbaycan müstəqil dövlətdir və bu dövrdə bu yöndə atılan bütün addımlarda əsas xətt vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı olub. Vətəndaş hüquqlarının, azadlıqlarını təmin edilməsi dedikdə, onların dövlət tərəfindən qorunması başa düşülür. Dövlət hüquq və azadlıqları qorumaq üçün müəyyən tədbirlər nəzərdə tutur və müəyyənləşdirilir. Vətəndaş hüquq və azadlıqları barədə şərh verən mütəxəssislərin qeyd etdiyinə görə, vətəndaş hüquq və azadlıqları odur ki, onlar dövlət tərəfindən qanun əsasında müəyyən edilir. Vətəndaşlara bu hüquq və azadlıqları dövlətin özü verir. Dövlət vətəndaşlar üçün çox işlər görür. Bu, dövlətin üzərinə düşən vəzifədir və o bunu həyata keçirir. Bəs vətəndaşlar dövlətin qanunlarına necə əməl edir?

Vətəndaşlar öz hüquq və azadlıqlarından sui-istifadəyə yol verirlərmi?

Ekspertlər təəssüflə qeyd edirlər ki, heç də bütün vətəndaşlar hüquq və azadlıqlarından lazımı səviyyədə istifadə etmir, bəzi hallarda vətəndaşlar qanunun onlara verdiyi hüquq və azadlıqları normal qiymətləndirə bilmir, ondan sui-istifadə etməyə çalışır. Mütəxəssislər qeyd edir ki, bir qrup insan hüquq və azadlıq deyəndə onu normal şəkildə qavramır. Tutaq ki, dövlət qurumlarının icazəsi olmadan hansısa bir qrup icazəsiz aksiya keçirir, asayişi pozmağa cəhd edir və sair. Bu adamlar dərk etmirlər ki, öz hüquq və azadlıqlarını əllərində bayraq etməklə başqalarının hüquq və azadlıqlarını pozurlar.

İSBAM sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, bu gün bizim cəmiyyətdə əsas diqqət yetiriləsi məsələlərdən biri insanlarda siyasi mədəniyyətin formalaşdırılmasıdır. İnsanlarımızda siyasi mədəniyyət tərbiyə edilməlidir deyən S.Adıgözəlli qeyd etdi ki, hüquq və azadlıqlardan istifadə ilə siyasi mədəniyyətin vəhdəti olmalıdır. O hesab edir ki, bizim vətəndaşların müəyyən bir qismi hüquq və azadlıqlarından danışır, amma siyasi mədəniyyəti unudur. S.Adıgözəllinin sözlərinə görə, adını siyasətçi, partiya sədri qoyan şəxslər var ki, onların ümumiyyətlə siyasi mədəniyyətdən anlayışları yoxdur və biz bunu onların davranışlarında görürük. "Müasir dövrdə Prezident İlham Əliyevin davranışları siyasi mədəniyyətin ən üstün örnəyidir. Dövlət başçısının yeni davranış normalarının formalaşmasına önəm verməsi ölkədə demokratik siyasi mədəniyyətin inkişafına şərait yaradır"- deyən S.Adıgözəlli qeyd etdi ki, Azərbaycanda siyasi mədəniyyət siyasi sisteminin formalaşmasında ölkə başçısının xüsusi rolu var.

**"Siyasi mədəniyyətimizin daha da güclənməsinə ehtiyac var..."**

Daha sonra İSBAM sədri qeyd etdi: "Ölkəmizdə vətəndaş hüquq və azadıqları, siyasi plüralizmlə bağlı ciddi problem yoxdur. Bəziləri bəzən hansısa ölkələrlə Azərbaycanı müqayisə etmək istəyirlər. Bu haqsızlıqdır. Demirik ki, insan hüquqları hardasa pozulmur, pozulur, amma dövlət qurumlarının müdaxiləsi, ictimai qınağın göstərilməsi nəticəsində problem həllini tapır. Bəzən vətəndaş "hüquq və azadlıqlarımı qoruyuram" deyərək mübarizəyə başlayır, amma o öz mübarizə taktikasını düzgün qura bilmədiyi üçün anormallıq olur. Belə olur ki, vətəndaş bu davranışları ilə qanunları, hüquqi prinsipləri pozur, nəticədə də dövlət ciddi qərar qəbul etməli olur. Amma vətəndaşın da hüquqları pozulduqda dediyim kimi, dövlət qurumları onu aradan qaldırır. Vətəndaşlarımız aktiv olmalıdır, siyasi fəallığını gücləndirməlidir, amma gərək siyasi fəallığı da siyasi mədəniyyətin prinsiplərindən qaynaqlansın, ora dayansın. Doğrudur, siyasi fəallığı olmayan cəmiyyətlər ölü cəmiyyətlərdir. Həmin ölkələrdə inkişaf mümkün deyil. Hansısa bir problemə görə hökuməti dövləti kor-koranə tənqid etmək, hansa qarayaxmalar aparmaq yolverilməzdir. Siyasi mədəniyyətimin daha da güclənməsinə ehtiyac var ki, vətəndaşlarımız sui-istifadə hallarına yol verməsinlər".

**Hüquq və azadlıqlardan aşırı istifadə edənlər...**

S.Adıgözəllinin sözlərinə görə, dövləti tənqid etməklə iş bitmir, bizim siyasi partiyalar dövlətə təkliflər də verməlidir, amma biz o təklifləri, o təşəbbüsləri görmürük. "Hökumətə nə zaman təkliflər veriblər? Bu siyasi qüvvələrin nə zamansa hökumətə bir təklif verdiyini gördükmü? Niyə bir dəfə alternativ təklif, layihələr verilməyib ki, dövlət də onları nəzərdən keçirdə. Bu gün hansısa xarici qüvvələrin sifarişi ilə "Azərbaycanda insan hüquq və azadlıqları qorunmur" iddiası ilə bəyanatlar verməyin, qanunsuz aksiyalar keçirməyin bir adı var - asayişi pozmaq, ölkədə çaxnaşma, qarşıdurma yaratmaqdır. Bunlar dövlətə, xalqa xəyanətdir. Bunun həm hüquqi, həm də mənəvi ziyanları var. Bir tərəfdən qanunu pozurlar, o biri tərəfdən də dövlətə, xalqa şər atmaqla milli xəyanətə yol verirlər. Çünki bu adamların siyasi mədəniyyət anlayışı yoxdur. Siyasi mədəniyyət anlayışı olmayanlar isə yalnız cəmiyyətə ziyan vura bilər. Bu gün bölgəki vəziyyətə baxsınlar, görsünlər ki, nələr var. Ermənistanın təxribatları hələ başa çatmayıb, sülh müqaviləsi bağlanılmayınca onlardan hər şey gözlənilir. Ermənistan yenidən silahlandırılır, müharibəyə təhrik edilir. Bunlar da burada hansısa dairələrin sifarişi ilə qanunları pozurlar və sair. Qanunun tələblərini əsas götürüb çaxnaşma salmaq istəyən qrupa qarşı tədbir görülməlidir, görüləcək də. Onlar anlamırlar ki, bizə milli həmrəylik lazımdır" - deyə S.Adıgözəlli vurğuladı.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**